AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

6 oktyabr 2022-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 39 (3602)



# AĞDAMDA QURUCULUQ İŞLƏRİ SÜRƏTLƏNİR

## *Düşmənin dağıtdığı şəhər və kəndlərdə tezliklə həyat canlanacaq*






Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 4-də Ağdam rayonuna səfər ediblər.

Prezident İlham Əliyev Bərdə-Ağdam avtomobil yolunda görülən işlərlə tanış olub. Qeyd edilib ki, layihə üzrə torpaq işləri başa çatdırılıb, ümumi iş həcminin 75 faizi icra olunub.

Sonra Ağdam rayonunun Eyvazxanbəyli kəndində Atçılıq Nəsilartırma Mərkəzinin təməlqoyma mərasimi keçirilib.

Dövlətimizin başçısı və birinci xanım atlara baxış keçiriblər.

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya Atçılıq Nəsilartırma Mərkəzi barədə məlumat verilib.

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 4-də Ağdam rayonunun Xıdırlı, Kəngərli və Sarıcalı kəndlərinin təməlqoyma mərasimində iştirak ediblər.

Dövlətimizin başçısına və birinci xanıma kəndlərdə görüləcək işlərlə bağlı məlumat verilib.

Səfər çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam şəhərinin daxili yol və kommunikasiya şəbəkəsinin təməlqoyma mərasimində iştirak ediblər.

Prezident İlham Əliyev Ağdam şəhərində “City Hotel Agdam” mehmanxanasının təməlini qoyub.

Bildirilib ki, Ağdamın bərpası konsepsiyasında şəhərin turizm potensialı da nəzərə alınaraq, ona uyğun infrastruktur yaradılır. Hotel müasir səviyyədə inşa olunacaq, rayona səfər edəcək ziyarətçilərin rahatlığı üçün burada hər cür şərait yaradılacaq.

Dövlət başçımız və birinci xanım Ağdamda Pənahəli xanın sarayı və İmarət kompleksində görüləcək işlərlə tanış olub, Xurşidbanu Natəvanın qəbirüstü abidəsinin açılışını ediblər.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevaya Pənahəli xanın sarayı və İmarət kompleksində görüləcək işlər barədə məlumat verilib.

Həmin gün keçmiş məcburi köçkünlər üçün Ağdam şəhərində inşa olunacaq yaşayış məhəlləsinin təməlqoyma mərasimi olub.

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər.

Ölkəmizin rəhbəri yaşayış məhəlləsinin təməlini qoyub.

Oktyabrın 5-də isə BMT-nin Məskunlaşma Proqramı və Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin birgə əməkdaşlığı, ADA Universitetinin təşkilati dəstəyi ilə Ağdamda “Dayanıqlı İnkişaf Məqsədləri” və “Yeni Şəhər Gündəliyi” – postmünaqişə dövründə bərpa və yenidənqurmanın aparıcı qüvvəsi kimi” mövzusunda Azərbaycan Milli Şəhərsalma Forumu işə başlayıb.

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Forumun açılış mərasimində iştirak ediblər.

Dövlətimizin başçısı tədbirdə çıxış edib.




Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik cənab Vilayət Eyvazov tərəfindən cari il oktyabr ayının 27-də Bərdə Rayon Polis Şöbəsinin inzibati binasında Bərdə, Ağcabədi, Tərtər, Ağdam, Şuşa, Laçın, Beyləqan, Füzuli, Xocavənd, Goranboy, Xocalı, Naftalan şəhər və rayonlarının sakinlərinin qəbulu keçiriləcək.

Qəbula yazılmaq istəyən vətəndaşlar Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı 26.10.2022-ci il tarixədək yaşadıqları ərazinin polis orqanına, habelə DİN-in mia.gov.az internet saytı vasitəsilə və sosial şəbəkələrdəki səhifələrinə müraciət edə bilərlər.

Qəbula gələnlərdən şəxsiyyət vəsiqəsi tələb olunur.

# QƏHRƏMANLAR UNUDULMUR

Oktyabrın 5-də Dövlət Turizm Agentliyinin inzibati binasında I Qarabağ Müharibəsi zamanı şəhidlik zirvəsinə ucalmış Azərbaycanın Milli Qəhrəmanı, polis baş leytenantı Sərdar Səfərovun barelyefinin açılış mərasimi keçirilib.



Tədbirdə Milli Qəhrəmanın ailə üzvləri, dövlət rəsmiləri, ictimaiyyət nümayəndələri, həmçinin Vətən müharibəsi qaziləri iştirak ediblər.

Dövlət himni səsləndirildikdən sonra Vətən uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev qurumun inzibati binasında Milli Qəhrəmanın barelyefinin olmasının kollektiv üçün qürurverici hadisə olduğunu bildirib.

Rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Cavid Qurbanov Milli Qəhrəman Sərdar Səfərovu uşaqlıq illərindən tanıdığını deyib, onunla bağlı xatirələrini mərasim iştirakçıları ilə bölüşüb. Nazir müavini vaxtilə Milli Qəhrəmanın azadlığı uğrunda döyüşdüyü torpaqların indi azadlığa qovuşduğunu və onunla yanaşı, bütün şəhidlərimizin ruhunun şad olduğunu vurğulayıb.

Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov Sərdar Səfərovun və onun döyüş yoldaşlarının müasir gənclərimizə örnək olduğunu, Vətən müharibəsində məhz bu cür igidlərimizin son damla qanlarınadək döyüşdüklərini diqqətə çatdırıb.

Tədbir zamanı şəhidin ailə üzvləri və yaxınları tərəfindən onun haqqında xatirələrini dilə gətiriblər. O da diqqətə çatdırılıb ki, barelyefin qarşısındakı küçəyə 1994-cü ildə Sərdar Səfərovun adı verilib.

Daha sonra Sərdar Səfərovun xatirə barelyefinin açılışı olub.

Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli Fərmanı ilə baş leytenant Sərdar Mədət oğlu Səfərova ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilib.

Onun məzarı Kəlbəcər rayonundadır.








# TARİX YAZDILAR, TARİXƏ DÖNDÜLƏR

**XXI əsrdə sədası sərhədlər aşan müharibəni yenidən təcavüz niyyəti ilə başladanın sonunun ibrətlik olduğu bu gün göz önündədir. "Əfsanəvi ordu"nun yenilməzliyinin nişanəsi döyüş meydanında sıradan çıxarılmış tanklar, toplar, dəyəri milyonlarla ölçülən digər silahlar olsa da düşmən onu dirçəltmək üçün yaxında, uzaqda yenə havadar axtarır. Ancaq bir şeyi unudur ki, növbəti cəhdləri yer üzündən silinmək təhlükəsi ilə onları üzbəüz qoyacaq. Belə olan halda isə nə yaxın köməyə çatacaq, nə də ki, uzaq.**

Qalib xalq və ordu kimi müharibəsinin üstündən iki il ötsə də biz hər günümüzü Zəfər coşqusu ilə yaşayırıq. Bu tarixi Qələbəni bizə bəxş edənləri isə hörmətlə anır, ehtiramla yad edirik. Paytaxtda və bölgələrdə həmkarlarımız şəhid ailələrini ziyarət edir, onların kədərinə şərik olurlar.

Vətən müharibəsinin növbəti ildönümündə Neftçala Rayon Polis Şöbəsinin rəhbərliyi və əməkdaşları, eləcə də Daxili Qoşunlarının hərbi qulluqçuları torpaqlarımızın azadlığı uğrunda aparılan Vətən müharibəsi zamanı şəhidlik zirvəsinə ucalan hərbiçilərimizin ailələrini ziyarət ediblər.

***Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçuları olmuş Rauf Süleymanov, Şahlar Məmmədov və Səid Cəfərovun*** ailə üzvlərinin qonağı olan polislər və hərbi qulluqçular görüş zamanı onların qayğıları ilə maraqlanıb, şəhidlərimizin Vətən müharibəsində göstərdikləri qəhrəmanlıqlardan, qələbə əzmindən danışıblar. Bildirilib ki, müqəddəs amal uğrunda canlarından keçən mərd oğullarımızın əziz xatirələri hər zaman qəlbimizdə yaşayacaq və onların igidlikləri gələcək nəsillər üçün örnək olacaq.

Şəhid ailələri də onlara göstərilən diqqət və qayğıya görə öz minnətdarlıqlarını bildiriblər.

Görüşlərin sonunda RPŞ-nin kollektivi və hərbi qulluqçular şəhidlərin məzarlarını ziyarət edərək, önünə əklil və gül-çiçək dəstələri qoyublar.

***Oktyabrın 1-də isə Binə qəsəbəsindəki Şəhidlər xiyabanında torpağa tapşırılan Daxili Qoşunların hərbi qulluqçusu Tural Abdullayevin anım günü keçirilib.*** Daxili İşlər Nazirliyi yanında İctimai Şura üzvləri də anım gününə qatılıb.

Qeyd edək ki, hərbi qulluqçumuz Tural Abdullayev Vətən müharibəsi zamanı Murovdağda silahdaşları ilə bərabər düşmənin 6 döyüş mövqeyini tutaraq 400 nəfərədək canlı qüvvəsini məhv etmiş, döyüş tapşırığını yerinə yetirib geri dönərkən şəhidlik zirvəsinə ucalmışdır.

Azərbaycan Respublikası Prezidentinin 9, 15 və 29 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları ilə baş çavuş Abdullayev Tural Şakir oğlu (ölümündən sonra) "Qarabağ" ordeni, "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

*R.Əliyeva,*
*N.Həmidov*

# ƏN SƏRRAST ATICILAR MÜƏYYƏNLƏŞİB



**DİN İdman Cəmiyyətinin təşkilatçılığı ilə sentyabrın 28-dən 30-dək Atıcılıq tirində daxili işlər orqanlarının hissə və bölmələri arasında "Güllə atıcılığı" üzrə yarış keçirilib.**

Məqsəd əməkdaşların döyüş hazırlığı səviyyəsinin yüksəldilməsi, silahdan istifadəetmə qaydalarının öyrədilməsi, eyni zamanda praktiki bacarıqlarının təkmilləşdirilməsidir.

Yarışda qadın və kişilərdən ibarət 23 komandada ümumilikdə 65 nəfər hədəfi nişan alıb. Tapşırıqlar tapançadan 15, 25 metr məsafəyə vaxtlı və vaxtsız atəş açmaqla üç mərhələdə yerinə yetirilib.

Açılışda İdman Cəmiyyətinin sədr müavini, polis polkovniki Elçin Rüstəmov iştirakçılara turnirin gələcək xidməti fəaliyyətlərində atıcılıq vərdişlərinin daha da inkişaf etdirilməsində xüsusi rol oynayacağını bildirib və nişançılara uğurlar arzulayıb.

İdman Cəmiyyətinin əməkdaşları polis polkovnik-leytenantı Dəyanət Ağayev, polis mayoru Aydın Həşimov və polis baş leytenantı Xudayar Kərimov idmançıları təhlükəsizlik qaydaları ilə təlimatlandırdıqdan sonra yarışa start verilib. Gərgin keçən turnirin komanda üzrə qalibi Daxili Qoşunların komandası olub. Əlahiddə Çevik Polis Alayının komandası II, Polis Akademiyasının komandası isə III yerə layiq görülüb. Qaliblərə kubok, diplom və medal təqdim olunub.



Qeyd edək ki, turnirə İdmanın təşkili bölməsinin baş inspektoru, polis polkovnik-leytenantı Zaur Məcidov baş hakimlik edib.

*Teymur Əlizadə,*
*polis mayoru*




# "DİQQƏT UŞAQLAR!"

Daxili İşlər Nazirliyinin müvafiq əmrinə əsasən respublika ərazisində sentyabrın 15-dən oktyabrın 15-dək "Diqqət uşaqlar!" adı altında elan edilən hərəkətin təhlükəsizliyi aylığı çərçivəsində maarifləndirici tədbirlər davam etdirilir.

Bu günlərdə paytaxtın 211 nömrəli tam orta məktəbində "Yol hərəkəti qaydalarını öyrənək və əməl edək!" mövzusunda baş tutan tədbirdə Bakı şəhər BPİ-nin əməkdaşları, 1 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin nümayəndələri, məktəbin rəhbərliyi, müəllim və şagird heyəti iştirak edib.

Bakı şəhər BPİ-nin baş inspektoru, polis polkovnik-leytenantı Kəmalə Ələkbərova və inspektor, polis leytenantı Mehriban Cabbarova çıxışlarında şagirdlərə piyada keçidlərindən istifadə, eyni zamanda, yol hərəkəti qaydalarına əməl etmənin zəruriliyi barədə danışıb, tövsiyələr veriblər. Qeyd edilib ki, bu kimi tədbirlər uşaqlara yol hərəkəti qaydalarını kiçik yaşlardan təbliğ etmək məqsədilə keçirilir. Yol-nəqliyyat hadisələrinin azalmasında valideynlərin də üzərinə məsuliyyət düşdüyü, xüsusən, övladlarını təhsil müəssisələrinə gətirərkən məktəb qarşısında sıxlıq və tıxacların yaradılması, yol hərəkət qaydalarının pozulması hallarının yolverilməz olduğu diqqətə çatdırılıb.

Tədbirdə yol nişanları haqqında məlumat verilib və şagirdlər musiqi nömrələri ilə çıxış ediblər.

Eyni mövzuda analoji tədbir Bakı şəhər BPİ Dövlət Yol Polisi İdarəsinin və Nəsimi RPİ 19-cu PB əməkdaşlarının iştirakı ilə 54 nömrəli tam orta məktəbdə də keçirilib.

*"Polis"*

# Səngərdə də, xidmətdə də cəsurdurlar

Daxili işlər orqanlarında xidmətə başlayan Vətən müharibəsi iştirakçıları artıq öz xidmətləri ilə diqqət çəkir, etimadı doğruldurlar. **Bu günlərdə Səbail RPİ-nin gənc əməkdaşlarının intihar hadisəsinin qarşısını alması bunun bariz nümunəsidir.**



Bir neçə gün əvvəl Dənizkənarı Milli Parkda intihara cəhd edən şəxsin xilaskarı da məhz onlar olub. Hadisənin təfərrüatı barədə danışan həmkarımız, polis kiçik serjantı Məhərrəm Məcidli "Polisə" bildirib ki, həmin gün axşam saatlarında Bakı Biznes Mərkəzinin yaxınlığında polis serjantı Nurlan Qədirovla xidmətdə olarkən, Bulvarın mühafizə xidmətindən bir nəfərin özünü dənizə atması barədə məlumat alıblar. Növbətçi Hissəyə məlumat verən həmkarlarımız dərhal özlərini hadisə yerinə çatdırıblar.

Boğulmaq təhlükəsi ilə üzləşən şəxsi xilas etmək üçün Nurlan Qədirov belinə kəndir bağlayaraq dənizə girib və onu sudan çıxarıb.

Hadisə yerinə gələn əməliyyat qrupunun köməkliyi ilə intihara cəhd edən Ağstafa rayon sakini A.Həsənbəyova Təcili Tibbi Yardımla xəstəxanaya yola salınıb. Ailə münaqişəsi zəminində intihara cəhd edən qadının müayinə zamanı hamilə olduğu məlum olub və onların həyatı təhlükəsinin sovuşduğu bildirilib.

***Yeri gəlmişkən, xidmətdə də döyüşdəki kimi cəsur olan həmkarlarımız - PPXB-nin polis serjantı Nurlan Qədirov "Cəsur döyüşçü", "Suqovuşanın azad olunmasına görə" və "Vətən müharibəsi iştirakçısı", polis kiçik serjantı Məhərrəm Məcidli isə "Qubadlının azad olunmasına görə", "Laçının azad olunmasına görə", "Cəbrayılın azad olumasına görə" və "Vətən müharibəsi iştirakçısı" medalları təltif ediliblər.***

*Ruslan Vəliyev,*
*polis baş leytenantı*

# Təltif edilən polislər



Vətən müharibəsində iştirak etmiş Nəsimi RPİ-nin daha üç əməkdaşına dövlət başçısının müvafiq sərəncamı ilə təltif olunmuş medallar təqdim edilib.

***Təqdimetmə mərasimində idarə rəisi, polis polkovniki Mirnemət Mirbabayev bildirib ki, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu böyük şücaət və yüksək döyüş hazırlığı göstərərək torpaqlarımızı işğaldan, düşmən tapdağından azad etdi.*** Qəhrəman əsgər və zabitlərimiz Azərbaycanın haqq uğrunda mübarizə aparmaq əzmini, əsl döyüş ruhunu bütün dünyaya nümayiş etdirərək tarix yazdılar.

Müharibə iştirakçılarının daxili işlər orqanlarında xidmətə qəbul edilməsinin DİN rəhbərliyi tərəfindən xüsusi ilə diqqət mərkəzində saxlanıldığını deyən idarə rəisi, yeni əməkdaşların müharibə meydanında göstərdikləri cəsarəti, şücaəti vəzifə borclarını yerinə yetirərkən də sərgiləyəcəklərinə əminliyini ifadə edib.

Daha sonra "Vətən müharibəsi iştirakçısı" medalı ilə təltif olunan 21-ci PB-nin əməkdaşı, polis polkovnik-leytenantı Rüstəm Quliyevə, Post-Patrul Xidməti Bölüyünün polis nəfərləri, polis kiçik serjantları Süleyman Ramazanov və Babək Yusubova medallar təqdim olunub.

**Qeyd edək ki, R.Quliyev buna qədər "Qarabağ" ordeni", "Qubadlının azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif olunub. S.Ramazanov Kəlbəcər uğrunda gedən döyüşlərdə atıcı, B.Yusubov isə Suqovuşanın azad edilməsində topçu kimi iştirak edib və müvafiq medallarla təltif olunublar.**

Daxili işlər orqanlarında xidmət etməkdən qürur duyduqlarını deyən müharibə iştirakçıları onlara göstərilən ali etimadı bundan sonra da doğruldacaqlarını deyiblər.

# GƏLƏCƏYİMİZ GƏNCLƏRƏ ƏMANƏTDİR

## *Yaxın illərdə sıralarımızda onları da görəcəyik*





**Yuxarı sinif şagirdləri ilə polis əməkdaşlarının növbəti görüşü İsmayıllı rayonunun A.Aslanov adına 2 saylı tam orta məktəbində keçirilib.**

Zərərli vərdişlərlə mübarizə və savadlı gənclərin Polis Akademiyasında təhsilə təşviq edilməsi məqsədilə keçirilən tədbirdə rayonun ictimaiyyət nümayəndələri, gənc polis əməkdaşları və veteranlar iştirak edib.

**Tədbirdə çıxış edən İsmayıllı Rayon Polis Şöbəsinin rəisi, polis polkovniki Şəmşir Kazımov** tariximizin ən təlatümlü dönəmlərində, dövlət müstəqilliyimiz, ərazi bütövlüyümüz təhdid ediləndə və cinayətkarlığa qarşı qətiyyətli mübarizədə Azərbaycan Polisinin özünü daima dövlətin əsas qoruyucusu kimi göstərdiyini deyib. Qeyd edilib ki, yeni çağın kriminal təhdidlərinə qarşı mübarizədə gənc, bilikli və bacarıqlı polis əməkdaşları ayıq-sayıq xidmət aparır, zəngin ənənələri davam etdirməklə, cinayətkarlıqla mübarizədə innovativ həll imkanları ortaya qoyurlar. Bu cür hazırlıqlı kadrlar hazırlayan Polis Akademiyasında təhsil alan hər bir gəncin həyatında dövlət əhəmiyyətli bir missiyanın başlandığını nəzərə çatdıran şöbə rəisi, daxili işlər orqanlarında xidmətin üstünlüklərindən danışıb.

**Rəis köməkçisi, polis mayoru Nicat Şəmdinli** də gəncləri qarşıdakı illərdə daxili işlər orqanlarında xidmətə qəbul olaraq, bu şərəfli missiyaya qoşulmaq imkanlarından istifadə etmələrini tövsiyə edib. Rayon ərazisindəki orta məktəbləri başa vuran abituriyentlər arasında Polis Akademiyasında təhsil almaq istəyənlərin sayının artdığını deyən rəis köməkçisi, bunun gələcəyimizin etibarlı əllərə təslim edilməsi istiqamətində önəmli olduğunu vurğulayıb.

Digər çıxışçılar da cinayətkarlıqla mübarizədə polis əməkdaşlarının xidmətinə diqqət çəkib, mövcud sabitliyin gələcəkdə də qorunub saxlanılmasında yeni nəslin üzərinə böyük məsuliyyət düşdüyünü bildiriblər.

Qeyd edək ki, silsilə tədbirlər Azərbaycan Prezidentinin Sərəncamı ilə təsdiq olunmuş "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın tələblərinin yerinə yetirilməsindən irəli gələn DİN-in müvafiq göstərişinə əsasən keçirilir.

*Rəşad Mehtiyev, polis baş serjantı*

Təhsildə, idmanda, yaradıcılığın müxtəlif sahələrində uğurlar əldə edən polis övladları barədə əvvəllər də yazmışıq. Cinayətkarlıqla mübarizə aparan asayiş keşikçilərinin ailələrində ölkəmizin gələcəyi üçün necə bacarıqlı, bilikli, intellektual nəslin yetişdiyini göstərməyə çalışırıq bununla.



Onlardan birini - Güllü Ağalarzadəni bu yaxınlarda tanımışıq, daha doğrusu, o, özünü bütün Azərbaycana tanıdıb. Bədii gimnastika üzrə milli komandamızın üzvü, İslamiadanın qızıl və gümüş medalçısı Güllünün adı idmanın bu növünün pərəstişkarlarına çoxdan bəlli olsa da, polis qızı olmasından əksəriyyət agah deyil.

# *Zirvəyə doğru...*

## *Bizi dünyaya tanıdan polis övladı*

**Onun atası Etibar Ağalarzadə DİN Baş Mühafizə İdarəsinin əməkdaşı, polis polkovnik-leytenantıdır.** Bəlkə də Güllünün bir övlad olaraq, ilk uğuru elə budur – artıq öz ad-sanı ilə önə çıxır, necə deyərlər, atasını övladına görə təqdim etmək lazım gəlir. Bu, hər bir atanın qürur duyacağı nailiyyətdir.

Ömrünü cinayətkarlıqla mübarizəyə həsr etmiş polis polkovnik-leytenantının evində kamilliyi, zərifliyi, musiqi ilə harmoniyanı və gözəlliyi beynəlxalq arenalarda Azərbaycan adına nümayiş etdirən əsl istedad yetişib, boya başa çatıb. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının 3-cü kurs tələbəsi olan Güllü üçqat Avropa çempionatının mükafatçısı, ikiqat İslam Oyunlarının çempionu və gümüş, həmçinin dünya çempionatının bürünc medalçısıdır. Milli komandanın tərkibində 14 yaşından iştirak edən həmkarımızın qızı ilk dəfə 6 yaşında xalçanın üzərinə çıxıb barmaqlarının üzərinə dikəldiyi andan gimnast zərifliyinin üzərinə ağır məsuliyyət yükləyərək, bu günlərə çatıb.

O, addım-addım yüksəldiyi zirvələri "barmaqlarının ucunda" fəth edir.

Güllü deyir: "Gimnastikada fiziki güc, iradə, musiqi duyumu tələb olunur. Üstəlik, plastikaları ilə tamaşaçıları heyran edən qızların artisizmi də yerində olmalıdır. Hərəkətin icrası nə qədər çətin olsa da gimnastın üzündən təbəssüm əskik ola bilməz. Etdiyimiz hərəkətlərin çətinliyini özümüz çəkirik, amma bunu tamaşaçıya, izləyiciyə hiss etdirə bilmərik. Bu, incə sənətdir".

Azərbaycanın bədii gimnastika üzrə qrup hərəkətləri komandasının Bolqarıstanın paytaxtı Sofiyada keçirilən dünya çempionatında bürünc medal qazanmasında Güllü Ağalarzadə digər komanda yoldaşları ilə birlikdə tarixi nailiyyətə imza atıblar. Çünki, bu, Azərbaycanın gimnastika tarixində dünya çempionatında qazandığımız ilk belə uğur olub. Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva V İslam Həmrəyliyi Oyunlarında nəticə əldə etmiş idmançılarla görüşündə olimpiadanın qızıl və gümüş medalçısı kimi Güllü Ağalarzadə çıxış edib. O, çıxışında da qeyd etdiyi kimi, deyir ki, əldə etdiyimiz bütün bu nailiyyətlər, cənab Prezidentin və Gimnastika Federasiyasının prezidenti Mehriban xanımın dəstəyi sayəsində olub.

DİN Baş Mühafizə İdarəsinin əməkdaşı, polis polkovnik-leytenantı Etibar Ağalarzadənin ikinci qızı Mahirə Azərbaycan Diplomatik Akademiyasının "Hüquq" fakültəsində təhsil alır. Oğlu Davud isə pianoçudur və bir çox müsabiqənin laureatıdır.

Sonda bu önəmli faktı ona görə qeyd edirik ki, güclü, parlaq cəmiyyətlərin mayası, mahiyyəti yalnız nümunəvi ailələrdən "qidalanır" ki, polis ailəsi Ağalarzadələr buna bariz misaldır.

*R.Mehtiyev*

# Peşəkarlıq və çeviklik nəticəsində

## *Polisin yüksək psixoloji və fiziki hazırlığı rəğbət doğurur*

İctimai asayişin və qaydanın qorunmasında ən böyük iş yükü bayır xidmətinin üzərinə düşür. Vətəndaşlarla günün istənilən saatında sıx ünsiyyətdə olan, yardıma, köməyə ilk çatan da məhz onlardır. Odur ki, bayır xidmətinə cəlb olunan əməkdaşların çevik, anında qərar qəbuletmə qabiliyyətinin, hər kəslə dil tapa bilmək bacarığının, eyni zamanda fiziki hazırlığının yüksək olması mütləqdir. Bu, həm də ona görə vacibdir ki, vətəndaşın güvənc yeri bildiyi, etibar etdiyi polis ona olan inamı doğrultmağı bacarsın.



**Bu günlərdə paytaxt ərazisində qəsdən adam öldürməyə cəhdin qarşısı Xəzər rayonu ərazisində xidmət aparan Əlahiddə Çevik Polis Alayının 11-ci Patrul Bölüyünün polis nəfəri, polis serjantı Vüsal Hacıyev tərəfindən qətiyyətlə alınıb.** Belə ki, gecə xidmətinə gedən həmkarımıza Buzovna qəsəbəsindəki "Favorit" marketin yaxınlığında iki vətəndaş yaxınlaşaraq bir kişinin bıçaqla qadına xəsarət yetirməsi barədə məlumat verib. Vaxt itirmədən hadisə yerinə çatan çevik polisimiz idman fəndi ilə əlisilahlını zərərsizləşdirib, eləcə də qolunda və barmağında kəsilmiş-deşilmiş yaraları olan xanıma ilk tibbi yardım göstərib. Cinayəti törədən şəxs isə aidiyyəti üzrə Rayon Polis İdarəsinin 2-ci Polis Şöbəsinə təhvil verilib. Faktla bağlı ilkin araşdırma zamanı onların keçmiş ər-arvad olduğu müəyyən olunub.

**ƏÇPA-nın 11-ci Patrul Bölüyünün komandiri, polis polkovnik-leytenantı Nofəl Fərzəliyev** polis serjantı V.Hacıyevin 2 ilə yaxın bir müddətdə xidmət etməsinə baxmayaraq şəxsi keyfiyyətlərinə görə fərqləndiyini, vəzifə borcuna məsuliyyətlə yanaşdığını, fiziki hazırlığının yüksək olduğunu bildirdi. Gənc polis əməkdaşın cinayətin qarşısını almaq üçün qətiyyətli mövqe nümayiş etdirməsini bölük komandiri şəxsi heyətlə düzgün aparılan işin, eləcə də xidmətöncəsi təlimatlandırılmanın nəticəsi olduğunu qeyd etdi.

*Teymur Əlizadə, polis mayoru*

# Silah-sursat aşkar edilib

Xocavənd Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən işğaldan azad edilmiş ərazilərdəki tərk edilmiş hərbi mövqelərdən silah-sursatın və partlayıcı vasitələrin toplanması istiqamətində intensiv tədbirlər davam etdirilir.



Bərdə regional qrupumuzdan verilən məlumata görə, Xocavənd RPŞ-nin əməkdaşlarının rayon ərazisində keçirdiyi tədbirlər nəticəsində 3 avtomat, 1 pulemyot, 48 əl qumbarası, 1 mərmi və digər sursatlar götürülərək aidiyyəti üzrə təhvil verilib.

# BÖLGƏLƏRDƏN GÜCLÜLƏR SEÇİLİR

## Zirvələr sağlam və intellektual gənclıklə fəth olunur



Daxili İşlər Nazirliyinin İdman Cəmiyyətinin və Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı ilə oktyabrın 4-də Şirvan şəhər Olimpiya İdman Kompleksində gənclər arasında "Sağlam bədəndə sağlam ruh" devizi altında idmanın kross və gimnastika növləri üzrə respublika yarışlarının bölgələr üzrə mərhələsinə start verilib.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra Vətən torpaqlarının azadlığı uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.





Tədbiri giriş sözü ilə açan Daxili İşlər Nazirliyinin İdman Cəmiyyətinin əməkdaşı, polis polkovnik-leytenantı Zaur Məcidov ölkəmizdə idmanın inkişafına göstərilən dövlət qayğısından danışıb. Bildirib ki, bu yarışların keçirilməsində məqsəd gənclər arasında sağlam həyat tərzinin, idmanın təbliği, gənclərin Daxili İşlər Nazirliyi sistemində təhsilə və xidmətə təşviq edilməsidir.

Çıxışlardan sonra yarışın proqramında müəyyən olunan marşrut üzrə 30 nəfər gənc 1000 metr məsafəyə kross qaçışını və gimnastika hərəkətlərini yerinə yetirib.

Yarışların sonunda hər bir hərəkət üzrə I, II və III yerləri tutan idmançılar Daxili İşlər Nazirliyinin İdman Cəmiyyəti tərəfindən müvafiq diplom, medal və qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

*Nizam Həmidov,*
*polis baş leytenantı*

# Əməliyyat uğurla nəticələndi

**Binəqədi RPİ 4-cü Polis Şöbəsi** əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində M.Ə.Rəsulzadə qəsəbəsində yerləşən, fəaliyyət göstərməyən bir restorandan 35 min manat dəyərində 2 ədəd kondisioner, 32 ədəd qapı, 33 ədəd pəncərə, xalça və elektrik naqili oğurlamaqda şübhəli bilinən Yevlax rayon sakinləri M.Bədirov və M.Əmiraslanov müəyyən olunaraq saxlanılıblar.

◆◆◆

**Göyçay Rayon Polis Şöbəsi** əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində rayon ərazisindəki marketlərin birində kassadan 500 manatı soyğunçuluq yolu ilə talamaqda şübhəli bilinən Ağdaş rayon sakini C.Məmmədov saxlanılıb.

◆◆◆

**Abşeron Rayon Polis İdarəsi** əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində Xırdalan şəhəri ərazisində "Mercedes" markalı avtomobildən 70 manat və 400 ABŞ dolları, "Opel" markalı avtomobildən isə 1935 manat dəyərində 202 ədəd eynək oğurlamaqda şübhəli bilinən Sumqayıt şəhər sakini, əvvəllər məhkum olunmuş K.Əliyev müəyyən olunaraq saxlanılıb.


# Xəzri sizi gözləyir




**Daxili İşlər Nazirliyinə bilavasitə tabe olan "Xəzri" İstirahət və Sağlamlıq Mərkəzində 16 sentyabr 2022-ci il - 31 may 2023-cü il tarixlərində 2-ci mövsüm üzrə standart otaqların bir günlük qiymətləri**

**(Daxili işlər orqanlarının əməkdaşı üçün 14 gün müddətinə olan yollayışda nəzərdə tutulmuş güzəştlərlə)**

**Qeyd:** 1. "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmət keçmə haqqında" Əsasnamənin 99-cu bəndinə əsasən, daxili işlər orqanları əməkdaşlarına hər il yollayışın qiymətinin 75 faizi miqdarında, ailə üzvlərinə isə 50 faizi miqdarında imtiyaz verilir. Yollayışlar 14 gün müddətinə ildə bir dəfə verilir və yalnız standart otaqlara aiddir. Bu imtiyaz iki bərabər hissəyə (hər biri 7 gün müddətində) bölünmək şərtilə verilə bilər.

2. Daxili Qoşunların hərbi qulluqçuları (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) qanunvericiliklə müəyyən edilmiş əsaslarla Mərkəzə yollayış almaq hüququna malikdirlər.

3. Bir günlük xərc tək polis əməkdaşı üçün 25,00 manat (iki nəfərlik nömrəni tək tutduqda 37,50 manat), standart 2 nəfərlik otaqda özü və 1 nəfər ailə üzvü üçün 75,00 manat, özü və 6-12 yaşadək bir uşaq (dolu otaqda əlavə yer verilmək şərti ilə) üçün 62,50 manat, iki nəfər ailə üzvü üçün (özü olmadan) 100,00 manat və onlarla birgə 6-12 yaşadək uşağa əlavə yer verildikdə 125,00 manat təşkil edir.

4. 6 yaşadək uşaqların qalması ödənişsizdir.

5. Qiymətlərə pulsuz 3 dəfə yemək, Wi-Fi şəbəkəsi, SPA girişi (qapalı hovuz, hamam, sauna), çimərlikdən, açıq hovuzdan, akvaparkdan, trenajorlardan, mini-futbol, voleybol və uşaq meydançalarından istifadə daxildir. Digər bütün xidmətlər ödənişlidir.

6. Karantin rejimi dövründə 18 yaşdan yuxarı şəxslərin COVİD-19 pasportunun təqdim etməsi mütləqdir.

**Ünvan: Bakı şəhəri, Zuğulba qəsəbəsi, Rasim İmanov küçəsi, 40. "Koroğlu" metro stansiyasından Mərkəzə 171 nömrəli avtobusla gəlmək olar.**
**Telefon: (+99412) 554-47-60;**
**Mobil telefon: (+99450) 291-15-51; (+99455) 291-15-51;**
**Faks: (+99412) 453-63-33;**
**Poçt indeksi: AZ1090**
**Veb-sayt: www.khazri.mia.gov.az**
**E-poçt: info@khazri.mia.gov.az**

| 16 sentyabr 2022-ci il - 31 may 2023-cü il<br>(2 nəfərlik standart otağın güzəştsiz qiyməti : iki nəfər qaldıqda 200 manat, bir nəfər tək qaldıqda 150 manat) | | |
|---|---|---|
| | 2 nəfərlik nömrədə iki istirahətçi qaldıqda 1 nəfər üçün | 2 nəfərlik nömrədə bir istirahətçi tək qaldıqda |
| Yollayışla gələn polis əməkdaşı (75% güzəştlə) | 25,00 manat | 37,50 manat |
| Onun ailə üzvü (50% güzəştlə) | 50,00 manat | 75,00 manat |
| Polis əməkdaşı ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (50% güzəştlə) | 25,00 manat | |
| Kənar şəxslər (güzəştsiz qiymət) | 100,00 manat | 150,00 manat |
| Valideyni ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət) | 50,00 manat | |
| 12 yaşdan yuxarı şəxsə yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət) | 70,00 manat | |


# Daxili işlər orqanları əməkdaşlarının nəzərinə!



Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin 1, 2, 3 və 4 saylı uşaq bağçalarına daxili işlər orqanlarında xidmət edən əməkdaşların uşaqlarının qəbulu həyata keçirilir.

Ətraflı məlumat üçün DİN-in Maddi-Texniki Təminat Baş İdarəsinə müraciət edə bilərsiniz.

**Əlaqə nömrələri: (012) 562-38-40 və 408-81-25**

**Bağçalar: 1 saylı-(012) 594-14-49, 2 saylı-493-05-68, 3 saylı-440-82-35, 4 saylı-563-55-80**




# Allergiya, yoxsa soyuqdəymə? Necə ayırd edək?

Fəsil dəyişməsi zamanı bir çox insanlarda allergiyanın əlamətləri meydana çıxır - zökəm, asqırma, öskürək, gözlərin, burunun qaşınması və s.

Bəzən insanlar allergiyanın əlamətlərini soyuqdəymə kimi qiymətləndirərək lazım olmayan və effektsiz müalicələrə əl atır.

Əslində, allergiyanı soyuqdəymədən ayırd etmək kifayət qədər asandır.



1. Soyuqdəymə zamanı insanda hərarət qalxır, allergiya zamanı isə yox.

2. Soyuqdəymənin əlamətləri bütün gün ərzində özünü göstərir, allergiya zamanı isə simptomlar daha da kəskinləşir.

3. Soyuqdəymə zamanı öskürək nəm olur, allergiya zamanı isə əksinə quru.

4. Allergiya zamanı boğazda güclü qaşınma hiss olur, soyuqdəymə zamanı yox.

5. Soyuqdəymə zamanı intoksikasiya əlamətləri meydana çıxır: ümumi zəiflik, iştahsızlıq, ürəkbulanması, tərləmənin artması, əzələlərdə, oynaqlarda ağrılar və s. Allergiya zamanı belə simptomlar olmur.

6. Allergiyadan əziyyət çəkən insanın üzü yuxulu görünür, ağzı, demək olar, daim yarıaçıq qalır, gözlərin altında tünd kölgələr əmələ gəlir.

7. Allergiya zamanı insanın burnundan çoxlu duru, şəffaf selik axır. Soyuqdəymə zamanı isə selik daha qatı olur, sarı və ya yaşılımtıl rəngdə olur.

8. Allergiya zamanı gözlər qızarır, güclü qaşınır. Soyuqdəyməyə bu simptom xas deyil.

*Natiq Abdullayev*

# STATİSTİKA

## Kriminal icmal

✸ Sentyabrın 28-dən oktyabrın 5-dək olan müddət ərzində ölkə ərazisində qeydə alınan 332, əvvəlki dövrlərdən bağlı qalan 55 cinayətin açılması daxili işlər orqanlarının əməkdaşları tərəfindən təmin olunub.

✸ Axtarışda olduğuna görə ümumilikdə 371, o cümlədən borclu şəxs qismində axtarışda olan 270 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.

✸ Respublikanın avtomobil yollarında ölümlə nəticələnən 18 yol-nəqliyyat hadisəsi baş verib, nəticədə 21 nəfər ölüb, 7 nəfər isə xəsarət alıb.

✸ Narkotiklərlə əlaqəli 175, qanunsuz saxlanılan silah-sursatın götürülməsi və aşkarlanması ilə bağlı 12 fakt müəyyən edilib.

*Natiq Cavadov*


POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.

REDAKTOR: HAFİZ TƏMİROV

Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 10009

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30

Çapa imzalanmışdır 18:30
Qiyməti 40 qəpik